# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

**(Əvvəli 2-ci səhifədə).**

Ötən müddət ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 228.167 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 8.160 min manat, yaxud 3,7 faiz çox olmuşdur.

Cari ildə keçən ilə nisbətən ümumi məhsul buraxılışı sənayedə 159 min manat, yaxud 1 faiz, kənd təsərrüfatında 2.997 min manat, yaxud 6 faiz, tikintidə 2.310 min manat, yaxud 2 faiz, nəqliyyatda 463 min manat, yaxud 18 faiz, rabitədə 60 min manat, yaxud 8 faiz, ticarətdə 2.171 min manat, yaxud 10 faiz artmışdır. Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 2.274 manatdan 47 manat artaraq 2.321 manata çatmışdır.

Sənaye mallarının istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 70,9 faiz təşkil etmişdir. 2012-ci ildə sənaye müəssisələrində çalışan işçilərin orta aylıq nominal əmək haqqı 312 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 3,3 faiz çox deməkdir.

2003-cü ilin oktyabr ayından 1 yanvar 2013-cü il tarixədək 10.943 yeni iş yerləri açılmışdır. Ondan 8.895-i daimi iş yeridir. Hesabat ilində açılmış yeni iş yerlərinin sayı 901 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 126.475 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 113.840 min manat təşkil etmişdir. Əvvəlki illə müqayisədə əsas kapitala yönəlmiş investisiyanın həcmi 2.310 min manat, yaxud 2 faiz artmışdır.

Rayonun yerli gəlirləri 2012-ci ildə 8.144 min manat proqnoza qarşı 9.833,5 min manat (120,7 faiz) və ya 1.689,5 min manat çox, o cümlədən öz gəlirləri 7.896 min manat proqnoza qarşı 9.758,1 min manat (123,6 faiz) və ya 1.862,1 min manat çox, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 9.380,8 min manat, dürüstləşdirilmiş proqnoza qarşı 7.055,2 min manat (75,2 faiz) və ya 2.325,6 min manat az, yerli xərcləri dürüstləşdirilmiş 17.276,8 min manat proqnoza qarşı 16.558,4 min manat (95,8 faiz) və ya 718,4 min manat az icra olunmuşdur. Yerli xərclərin təyinatdan az icra olunmasının səbəbi əmək haqqı və ona üstəlik xərc maddələrində qənaətin yaranması ilə bağlı olmuşdur.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.



***10 sentyabr 2012-ci il.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ Mədəniyyət Mərkəzinin yeni tikilmiş binasında son tamamlama işləri ilə tanış olur.*

> **Qəbələ sosial-iqtisadi inkişaf baxımından abadlıq və quruculuq işləri sahəsində mühüm nailiyyətlər qazanmışdır. Dağlar diyarının bu günkü inkişafı insanlarımızın hər şeyə qadir olduğunu sübut edir.**
>
> **İlham ƏLİYEV.**

2012-ci il ərzində bütün növ istehlakçı qruplar tərəfindən 77.797,1 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 4.667,8 min manata qarşı 4.027,7 min manat vəsait toplanaraq illik yığım planı 86,3 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 46,0 faiz, dövlət müəssisələri üzrə 100,6 faiz, ticarət xidməti üzrə 99,2 faiz, özəl sənaye üzrə 99,7 faiz, əhali qrupu üzrə isə 79,0 faiz olmuşdur. İl ərzində 10 kV-luq hava xəttinin 7,13 km məsafəsi əsaslı, 49,4 km məsafəsi cari, 0.4 kV-luq hava xəttinin 17,48 km məsafəsi əsaslı, 28,4 km məsafəsi cari təmir edilmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 27.759,6 min kub/metr təbii qaz istehlak olunmuş, istehlak edilmiş təbii qazın yığım məbləği 100,1 faiz təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 101,9 faiz, büdcə təşkilatları üzrə 99,2 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə isə 96,7 faiz olmuşdur. İl ərzində 433 yeni abonentə təbii qaz verilərək, abonentlərin ümumi sayı 9110-a çatdırılmışdır. Korroziyaya uğramış 2.417 p/m kiçik diametrli polad borular yeni borularla əvəzlənmiş, 4 ədəd tənzimləyici və 16 ədəd müxtəlif ölçülü siyirtmələr quraşdırılmışdır. Rayonda aparılan abadlıq işləri ilə əlaqədar 2.318 p/m qaz xəttinin yeri dəyişdirilmiş, Qəbələ şəhəri ilə Beynəlxalq Hava Limanı arasındakı yolunun genişləndirilməsi ilə əlaqədar 7.758 p/m müxtəlif ölçülü daşıyıcı və paylayıcı qaz xətləri demontaj olunmuş, 8.802 p/m qaz xətləri bərpa edilmişdir.



*Prezident İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən Qəbələ Şəhər Məscidinin son tamamlama işləri ilə tanış olur.*



***2012-ci il 10 sentyabr.** Prezident İlham Əliyev Qəbələ Konqres Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olur.*

**(Ardı 4-cü səhifədə).**